Ədəbiyyat qəzeti

22 may 2021-ci il 15



*Sabir Rüstəmxanlı bizim çox layiqli Xalq şairimizdir. Mənim də qələm dostum və qardaşımdır. Biz ömür yolunda qələmimiz və sözümüz ilə bir yerdə olmuşuq. Sabirin üstün cəhətlərindən biri onun həmrəyçi olmasıdır. Xalqı həmrəyə səsləyən ziyalıdır. DAK-da fəaliyyəti böyükdür. Azərbaycançılıq ideyalarının yayılmasında çox böyük fəaliyyəti var. Onun fəaliyyəti genişdir. İstər siyasətdə, istərsə də ədəbiyyatda və ələlxüsuz da cəmiyyətdə mövqeyi və hörməti danılmazdır. Elə bilirəm Sabir gözümün qarşısında birdən-birə doğuldu və böyüdü. Hələ gedirik, sonu nə olacaq bilinmir. Sizə hər şey yaraşır. Biz ömrün hansı səhifəsində olsaq da, Sabirə müraciət edəcəyik. Onun siyasi fəaliyyəti böyükdür. Amma biz onu şair kimi sevirik.*

***Musa YAQUB***

*Xalq şairi*